*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 430-438*

https://doi.org/10.62837/2025.6.430

**HİCRAN NƏSİBOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunun aparıcı elmi**
**işçisi, dosent**

## ARİF ABDULLAZADƏ – 85

# "ARİF ABDULLAZADƏNİN BƏDİİ YARADICILIĞINDA İNSAN VƏ CƏMİYYƏT"

XX əsrin II yarısında Azərbaycan ədəbiyyatının "60-cılar" adlandırılan nəslinin görkəmli nümayəndələrindən şair, nasir, ədəbiyyatşünas kimi Arif Abdullazadənin imzası "nəsrdə olduğu kimi, poeziyada da ədəbiyyatımıza yeni nəfəs, yeni estetik-ideloji (bəlkə də "estetik-antiideoloji) ab-hava gətirmiş və sənəti sosrealizm çərçivəsindən çıxmış" (Elçin. "Sözlərə azadlıq öyrədə bildik..." (4,8). "60-cılar" arasında xüsusi mövqeyə malikdir.

Poeziyanın müxtəlif problemlərini araşdıran tədqiqatçı-alimin "Novatorluq və üslub" (Bakı 1976), "Şairlər və yollar" (Bakı, 1984), "Şair Cəfər Cabbarlı" (Bakı, 1989), "Od nə çəkdi" (Bakı, 1990) monoqrafıyaları, "Rəsul Rza şeirinin mövzu dairəsi" (1970), "Qantəmir" (1973), "Rəsul Rza yaradıcılığı" (1974), "Rəsul Rza şeirinin poetik üslubu və əhatə dairəsi" (1976), "C.Cabbarlının poetik üslubu" (1980), "Nəbi Xəzrinin lirikası", "Müasirliyin konkret həlli", "Molla Cumanın yaradıcılığı", "Ədəbiyyatda insan amili", "Səməd Mənsur sədaqəti", "Aşıq Alı", "Qasım bəy Zakir", "Səhhət işığı", "Tənqid və sənətkar", "Söz sarayında" və s. tədqiqat işləri, elmi məqalələri müxtəlif form, simpozium, konfrans, konqres və sessiyalarda məruzə və çıxışları ilə ədəbiyyatşünaslığımızın inkişafı və təbliğində müəyyən rol oynamışdır.

Filologiya elmləri doktoru, professor Arif Abdullazadə ədəbi prosesdə orijinal ifadə üslubu, fərdi deyim tərzi, azad düşüncə, kəskin mövqeyi ilə seçilən bir alim olmaqla yanaşı, bu özünəməxsusluğunu həm şair, həm yazıçı kimi də təsdiqləmişdir.

Ədəbiyyatımızda "60-cılar" kimi tanınan sənətkarlar içində öz üslubi ilə fərqlənən Arif Abdullazadənin "Arzular" (1964), "Könüllərin dünyası" (1966), "Hər yerdə, hər zaman" (1969), "Ana dünyamız" (1975), "Sevin Azərbaycanı" (1979), "Səninlə sənsiz" (1983), "Bəxtimizin kitabı" (1988), "Всегда и всюду" (M., 1976), "Свет Абшерона" (M., 1986), "Seçilmiş əsərləri" (1991), "Ulu Qorqud" (1999), "Tövbə duaları" (2003), "Qatarla uçmaqdan yorulan durna" (2020) şeirlər kitabları, "Bir ovuc torpaq" (1982), "Duyum" (1986), "Qanlı yaddaş" (2010), "Sınaq kürrəsi" (2024) adlı romanları çap olunmuşdur.

Arif Abdullazadənin kitab şəklində çap etdirmədiyi iki dram əsəri - "Evlərin axşamları", "Aqillər" Şəki Dövlət Dram teatrında tamaşaya qoyulmuşdur. Onun fars, macar, polyak, rus, tacik dillərinə tərcümə edilmiş əsərləri çoxdur, başqa dillərdən etdiyi tərcümələri də az deyildir. O, bir müddət Azərbaycan Yazıçılar Birliyində poeziya bölməsinə sədrlik etmiş və ədəbi-elmi fəaliyyətinə görə Rəsul Rza adına mükafata layiq görülmüşdür. A.Abdullazadə ədəbiyyat sahəsindəki fəaliyyətinə görə 1980-ci ildə AMEA-nın fəxri fərmanı ilə təltif olunmuşdur.

Şair, nasir, alim Arif Abdullazadə 2002-ci ildə Bakıda vəfat etmiş, doğma Şəkidə torpağa tapşırılmışdır. Şəkidə onun adını daşıyan küçə vardır.

Arif Abdullazadənin özünün dediyi kimi, onun həm lirikası, həm də nəsri bir şair, bir vətənpərvər şəxsiyyətin və onun mənsub olduğu xalqın tərcümeyi-halı, tarixi, mənəvi dünyasıdır.

Onun şeirlərində təsvir və tərənnüm, vəcdlə düşüncə, həyəcanla fikir qovuşur, bu qovuşuqda gözəlliyi duyan, onun taleyi üçün narahatlıq keçirən lirik qəhrəman şair qəlbinin narahatlıq meyarını ifadə edirdi. Ömür yolundakı tragizmin dərkinə can atmaq, detallarda ümumi ovqatın rəmzini görmək, zamanın təzadlarını duyğularının süzgəcindən keçirərək özünə dərd eləmək müasirləri kimi Arif Abdullazadənin də lirikasını səciyyələndirən poetik və estetik əlamətlər idi.

A.Abdullazadə öz müasirlərini "60-cılar" adlı şeirində xarakterizə edərkən bu yanğının, vətənpərvərliyin oyanış başlanğıcının zamanın tələbindən doğduğunu göstərir:

Qəlblərini dələn söz yağmurundan,
Təptəzə sözlərlə öc aldı onlar.
Bu sözlər əl-ələ, dil-dilə verib,
Müzəffər yürüşə döndülər bir gün.
Söz-sözə qovuşub bayraq yaratdı,
Əsil çevrilişə döndülər bir gün. (3,61)

Y.Qarayev 70-ci illər poeziyasından bəhs edərkən yazmışdı ki, bu dövr təkcə lirik əsərlərdə deyil, həm də epik əsərlərdə qəhrəmanın mövqeyinin və estetik fəallığının qüvvətlənməsinin şahidi oluruq. Bir dövr vahidi kimi bütünlükdə 70-ci illərin poeziyasını xarakterizə edən bu əlamətdar cəhət müasir lirikada vətəndaşlıq və şair şəxsiyyəti problemini xüsusi bir kəskinliklə irəli sürür. İndi şeirin ictimai mövqeyi Cahanın və Zamanın qayğılarına şərikliyin daha da artan dərinliyi ilə ölçülür. (5,50)

Taleyinə tənhalıq yazılan şairin ən ülvi hissləri vətəninin, xalqının xoşbəxt, azad, bütöv gələcəyinə bağlı idi. 1990-cı ilin qanlı yanvarında xalqın başına gətirilən müsibətlər, Qarabağ uğrunda vuruşlarda dalbadal məğlubiyyətlər, torpaqlarımızın düşmən əlinə keçməsi onun 90-cı illər şeirlərinin ictimai ovqatını xarakterizə edirdi. Şairin son on ildə yazdıqları onun Allah və Zamanla dialoqu, keçdiyi ömür yolunun, bu yolda çəkdiklərinin bir növ haqq-hesabından ibarət olan lirik parçalardır.

Allahım, bu necə işdir,

Atdığım zər heçə düşdü.
Göz yumunca gecə düşdü,
Daldalandı duman kimi.
Toza döndü dağ niyyətim,
Göydə qaldı son heyrətim.
Tanrılarımla söhbətim,
Boşa çıxdı, "aman" kimi. (3,233)

A.Abdullazadənin fəlsəfi şeirləri içərisində Dünya modelinin müxtəlif poetik anlamını, dərkini səciyyələndirən nümunələr çoxdur. "Dünyamızın adiliyi", "Bu dünyanın işləri", "Mənim bu dünyada nə işim vardı", "Mənim dünyam", "Dünya da qocalarmış", "Dünyaya ilk sözüm", "Bu dünya", "Görən dünya, seçən dünya", "Dünyanın ağ yalanı", "Dünyanın düz vaxtı", "Ulduz axdı dünyadan", "Vəznlər, dünya və sən" şeirləri hər mövzuda dünya ilə həsbi-halı, cəhli-bəhsi şairin yaradıcılığından keçən qırmızı xətt boyunca inkişaf edən insan və dünya konsepsiyasını aydın ifadə edir.

Vətənin ağrı-acısına dözümsüzlük kimi səslənsə də şairin həyatdan umduğu ən böyük səadətinin, xoşbəxtliyinin aldığı zərbələrə - vətəninə dəyən zərbələrə dözə bilməməsi onsuz da problemli olan səhhətinə də təsirsiz qalmırdı. Torpaqlarımızın mahal-mahal zəbt olunması, igidlərimizin, günahsız yurddaşlarımızın şəhidliyi həssas şair qəlbinin daşıya biləcəyi yük kimi deyildi. Yaradandan, taleyindən, dünyadan gileyləri də 90-cı illərin ovqatı üstündə sızıldayırdı.

Ölüm məktubları yazıram artıq,
Birini özümə, birini sənə.
Tövbə duaları pıçıldayıram
Biri bu günümə, biri dünənə.
Sabaha yazmağa sözüm qalmayıb.
Əslində sabahın heç bir şeyində
gözüm qalmayıb. (3,189)

A.Abdullazadə "Hələ ki...", "Atalar", "Sevgilər", "Yad nəfəslər", "Son kişilər", "Yurd" və s. şeirlərində Azərbaycan adlı böyük bir ağrının problemləri ilə bir şair ömrünü sona vurdu, ağrılı-acılı dərdləri ilə son misralarında – "Zamanın boyu"nu "Son yarpağa yazılanlar"ında "tövbə" edib ayrıldı:

Zaman taleyimi içimdən oydu,
Ömür tabutuma tərsinə qoydu,
Gəlişim matəmdi, gedişim toydu,
Tövbə, ömür adlı kəlməyə tövbə,
Bir də bu dünyaya gəlməyə tövbə. (3,199)

60-cılar nəslinin üslubi meyillərini həm bir şair kimi, həm də nasir kimi yaradıcılığında əks etdirən, orijinallığı ilə seçilən, həm bədii, həm də elmi əsərlərində dövrün ədəbi-fəlsəfi tendensiya və konsepsepsiyalarından çıxış edən alim, şair, yazıçı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 430-438*

kimi tanınan Arif Abdullazadə irsi 1970-80-ci illər nəsrinin tədqiqi üçün maraqlı faktlar verir.

Arif Abdullazadənin ilk irihəcmli nəsr əsəri "Bir ovuc torpaq" adlanır. Əsərin başlanğıc və sonunda verilən müəllif qeydləri yalnız onun mövzu və ideyasını, qələmə alındığı coğrafı məkanları nişan verməklə məhdudlaşıb qalmır, həmçinin əsərdə cərəyan edən hadisələrin, min bir əzab-əziyyətlə yaşanılan həyatın bərkindən-boşundan çıxmağı ömrü boyu axtarıb arayan, qismətinə həsrət və nisgil dolu tale düşən insanların obrazları, şəxsi mənəvi dünyasına məxsus fərdi cizgiləri də dolğun şəkildə əks olunmaqdadır.

"Bir ovuc torpaq" romanının əsasını təşkil edən hadisələr Rusiya—Türkiyə—Azərbaycan miqyasında cərəyan etsə də, əsərin mövzu və qayəsi milli hiss və duyğuları vətən, doğma yurd-yuva həsrətini ömrü boyu şəxsi taleyində yaşadan insanların aqibəti haqqında əyani təsəvvür yaradır.

Əsərdə başlığa çıxarılan ad – "Bir ovuc torpaq" ifadəsi Nazim Hikmətin həm də mühacir taleyi ilə yaxından səsləşən anlayış kimi diqqəti çəkir. Romanda müəyyən parçalar bu barədə yetərincə təsəvvür yaradır: "...bir neçə il bundan əvvəl

Türkiyəyə gələn məşhur rus şairi Lev Oşanin İstambuldan bir ovuc torpaq aparıb Moskvada "Novodeviçi" qəbiristanlığında Nazimin qəbrinə səpib. Və Azərbaycan şairi Məmməd Araz bu barədə təsirli bir şeir də yazıb". (1, 229)

"Bir ovuc torpaq" II Dünya müharibəsindən sonrakı ictimai durum və zaman içərisində vətəndən uzaq düşən həmvətənlərimizin həsrət psixologiyasını real və həssaslıqla əks etdirən çox dəyərli romanlardan biridir.

Arif Abdullazadənin 1982-ci ildə yazdığı "Duyum" romanı yalnız o illərin ədəbi kontekstində deyil, həm də o dövrün cəmiyyət həyatının rəngləri, şəxsiyyət-insan amili ilə onun qarşısındakı problemlər fonunda zamanın insan və cəmiyyət konsepsiyasını qismən də olsa müəyyənləşdirməyə imkan və faktlar verir. Dövrün - zamanın gerçəkləri insan həyatının qayğıları, düşüncə və duyğuları işığında sınağa çəkilib cəmiyyətin mənzərəsinin aydınlaşdırıldığı bədii əsərlər sırasında bu romanın da xüsusi yeri, əhəmiyyəti vardır. 80-ci illər bədii fikrinin zamanla, həyatla ayaqlaşdığını göstərən, dövrün sosial-əxlaqi səciyyəsini, mühitin adi insanı narahat edən problemlərini real təcəssüm etdirən "Duyum"romanı bədii həqiqətin gerçəkliyə istinadını təsdiqləyir.

Müəllif qəhrəmanına ad qoymayıb və əsərin sonuna qədər də ona adı ilə müraciət olunan məqama ehtiyac hiss etməyib, bu baxımdan "O"nun həyatının anlarını sanki, özü imiş kimi dəqiq, hər addımını qabaqcadan duyurmuş kimi inandırıcı təsvir edir. Qəhrəmanın dünyagörüşünü, ətrafa, həyata münasibətini tam açmaq üçün istifadə etdiyi "səs" priyomundan çox sanki müəllif özü də bu obrazın tam portretini çizmək üçün bütün situasiyalarda bütün rənglərdən istifadə edir.

Əsərin epiloqa bənzər girişi ilə sonrakı məzmuna maraq oyadan yazıçı "onun ölümə" qədərki yaşamında özünün də "boz" adlandırdığı həyatının boz günlərinin

dəyərini anlamağa doğru gedən dördündə bu məzmunu yerləşdirib, bütün bir insan ömrünün mənasını, necə olursa-olsun var olmağın şirinliyini ifadə edə bilmişdir.

Arif Abdullazadə “Duyum” romanında Azərbaycan roman janrına yeni vasitə - yadplanetli - Səs ilə bir ilk gətirdi. Cəmiyyətdə “tənhalaşan” qəhrəmanın həyat fəlsəfəsini açmaq üçün yazıçının “yuxu” və “ölüm” komponentlərindən istifadəsi də 1980-ci illər nəsrinin uğuru sayıla bilər.

Arif Abdullazadənin istər “Duyum”, istərsə də “İşıq zolağı” romanlarında qəhrəmanların mühitlə aralarındakı “təcridlik sərhəddini” qaldırmaq cəhdləri əsər boyu izlənilir. Mühiti ilə doğmalaşa bilməyəndə içərisindəki boşluğu, hisslərinin daxili çəkişmələrini tənhalıqda çözməyə meyllənirlər. Mühitin gəncləri arasında adi qəbul olunan bu “tənha”ların hər birinin öz mənəvi əsasları, öz məntiqləri vardır.

Arif Abdullazadənin 1990-1991-ci illərdə yazdığı “Qanlı yaddaş” adlı romanı ölümündən səkkiz il sonra 2010-cu ildə çap olunmuşdur. XX yüzilliyin ikinci yarısında Azərbaycanda cərəyan edən hadisələr, cəmiyyətdəki problemlər, obrazların həyat fəlsəfəsini formalaşdıran və müxtəlif xarakterlərin bir araya gəlməsini təmin edən hadisələr, maraqların bənzərliyi bir amal uğrunda həmrəy olan gəncliyin yaşantıları və s. romanın əsasını təşkil edir. Müəllifin digər əsərlərindən məlum təhkiyəsi həm öz dilindən, həm də qəhrəmanın dilindən verilir. Süjet ətrafında topladığı xatirələri qəhrəmanın dilində söylədən müəllif 1960-cı illər gəncliyinin 60 ildə keçdiyi həyat yolunun – milli oyanışdan, kökə qayıdışdan, imperializmə qarşı milli azadlıq hərəkatından, didərginlik, ən nəhayət 1990-cı ilin qanlı 20 yanvar faciəsindən keçib gedən bir tarixi yolun salnaməsini qələmə almışdır. İnsanlığın – dünyanın taleyi üçün narahat, nigaran yazıçının “Sınaq kürrəsi” adlı fantastik romanında hadisələr başqa kürələrdə baş versə də, onun səs adlandırdığı qəhrəmanları – yer adamları, sınağın baş tutmadığı Sınaq kürrəsi – Yer olduğu o qədər real təsvir verir ki, yazıçı bunu özü də “etiraf” edir: “Yenicə partlayıb son zərrələri kainatın boşluqlarına səpələnən sınaq kürrəsi özünün şüurlu-şüursuz canlıları, məskənləri, topluları, kəşfləri, ixtiraları, tapıntıları, tarixi və bu tarixin yollarına səpələnmiş ömür taleləri, insan, heyvan, təbiət adları, uğurları, uğursuzluqları, sevgiləri, həsrətləri, sevincləri, qüssələri... ilə necə də bizim ana yer kürrəmizə bənzəyirdi...” (2, 335)

Arif Abdullazadənin əsərləri Azərbaycanın təxminən iyirminci yüzillikdəki bir əsrə bərabər dövrün Azərbaycanında insan-zaman-mühitin real təsvirini verən nəsr nümunələridir. Onun yaradıcılığı 1970-1980-ci illərdə Azərbaycan nəsrində insan və cəmiyyət konsepsiyasını araşdırmağa, dövrün sosial-psixoloji mahiyyətindəki tənhalığa meyl problemini müəyyənləşdirməyə imkan verən əsərlərdir. Yaşadıqları mühitin obrazların mənəviyyatına nüfuz edən faktor kimi səciyyələndirilmə üsulları insan və cəmiyyət haqqında aydın təsəvvür yaranmasını təmin edir. Arif Abdullazadənin ədəbi irsi bütün məziyyətlərinə görə Azərbaycan ədəbiyyatı tarixində xüsusi bir mövqeyə malikdir.

**Ədəbiyyat siyahısı:**

1. Abdullazadə A. Bir ovuc torpaq. Bakı, "Gənclik", 1982
2. Abdullazadə A. Sınaq kürrəsi. Bakı, "Optimist" MMC, 2024
3. Abdullazadə A. Tövbə duaları. Bakı, "Çaşıoğlu", 2003
4. Elçin. "Sözlərə azadlıq öyrədə bildik..." Bakı, "Ədəbiyyat" qəzeti, 23 dekabr 2023
5. Qarayev Y. Poeziya və nəsr. Bakı, "Yazıçı", 1974

## Arif Abdullazadənin bədii yaradıcılığında insan və cəmiyyət

**Nəsibova Hicran**

## XÜLASƏ

**Açar sözlər:** Arif Abdullazadə, poeziya, nəsr, insan, dünya, zaman.

Məqalədə Arif Abdullazadənin yaradıcılığı səciyyələndirilir. Onun lirik əsərlərindən gətirilən nümunələr əsasında şairin dünya, zaman, insan konsepsiyaları müəyyən edilir. "60-cılar" adlandırılan ədəbi nəslin dünyaya baxışı müəyyənləşdirilir. Arif Abdullazadənin lirikasını səciyyələndirən poetik və estetik əlamətlər göstərilir. Şeirlərindən gətirilən nümunələrlə şairin ictimai mövqeyi, vətənpərvərliyi səciyyələndirilir. Qeyd olunur ki, onun özünəməxsusluğu ilə seçilən, sevilən şeirləri şərəflə yaşayan insan adını doğrultmaq amalı daşıyır və xalqı totalitarizmə, imperiyaya qarşı etiraza səsləyən və azadlıq mücadilələrində xalqın ruhunu əks etdirən poeziya nümunələridir. Bununla belə torpaqlarımızın zəbt olunması, günahsız insanlarımızın didərginliyi, şəhidliyi şairin yaradandan, dünyadan, taleyindən gileyləndiyi şeirlərində 90-cı illərin ovqatı əks olunur.

Məqalədə Arif Abdullazadənin romanları haqqında müəyyən məlumatlar verilir. Qeyd olunur ki, onun romanları insan və cəmiyyət konsepsiyasını müəyyənləşdirməyə imkan və faktlar verir. Dövrün gerçəkliklərini, cəmiyyətin mənzərəsini, insanlığın psixoloji durumunu aydınlaşdırmağa əsas verir. Arif Abdullazadənin yazdığı ilk roman "Bir ovuc torpaq" II Dünya müharibəsindən sonra öz vətənindən uzaq düşən insanların həsrət psixologiyasını əks etdirir. Onun "Duyum" romanı 80-ci illər Aərbaycan mühitini, gəncliyinin sosial-əxlaqi səciyyəsini əks etdirir. Qəhrəmanın "boz" adlandırdığı həyatın "boz" günlərinin dəyərini anlamağa, insan ömrünün mənasını – necə olursa olsun var olmanın şirinliyini dərk etməyə doğru gedən bir ömrün real təsvirini vermişdir. Bu romanda Arif Abdullazadə Azərbaycan roman janrına yeni bir obraz – yadplanetli "səs" ilə bir ilk gətirmişdir. Həm "Duyum", həm də "İşıq zolağı" romanlarının qəhrəmanları mühitlə-cəmiyyətlə uyuşa, doğmalaşa bilməyən, hisslərini, daxili çəkişmələrini

tənhalıqda çözməyə meyillidirlər. Hətta "İşıq zolağı"nın qəhrəmanına "Robinzon" deyirlər. Belə qəhrəmanların formalaşmasında dövrün, zamanın həqiqətlərinin rolu yazıçı tərəfindən inandırıcı şəkildə ifadə olunur.

Məqalədə Arif Abdullazadənin ölümündən sonra çap olunmuş "Qanlı yaddaş" və "Sınaq kürrəsi" adlı romanları da təhlil olunur. Yazıçı "Qanlı yaddaş" romanında 1960-cı illər gəncliyinin 60 ildə keçdiyi həyat yolunun səlnaməsini qələmə almışdır. "Sınaq kürrəsi" adlı fantastik romanı isə insanlığın, kainatın taleyi üçün narahat, nigaran yazıçının insanlığa mesajıdır. Təhlillərin nəticəsi göstərir ki, Arif Abdullazadənin həm poeziyası, həm də nəsri bir əsrə bərabər dövrün Azərbaycanında insan-zaman-mühit haqda real təsvir verən ədəbi nümunələrdir, insan və cəmiyyət konsepsiyasını araşdırmağa, dövrün sosial-psixoloji mahiyyətini müəyyənləşdirməyə imkna verən dəyərli əsərlərdir.

**Nasibova Hicran**

## The Individual and Society in Arif Abdullazade's Literary Creativity

## ABSTRACT

**Keywords**: Arif Abdullazade, poetry, prose, human, world, time.

This article characterizes the literary work of Arif Abdullazade. Based on examples from his lyrical works, the poet's concepts of the world, time, and human being are identified. The worldview of the literary generation known as the "Sixtiers" is explored. The poetic and aesthetic features that define Arif Abdullazade's lyricism are highlighted. Through selected poems, the poet's social stance and patriotism are revealed. It is noted that his poems, which are distinguished by their uniqueness and are deeply loved, carry the ideal of justifying the title of a person who lives with honor. They serve as poetic expressions of protest against totalitarianism and empire, reflecting the spirit of the people in their struggle for freedom. Furthermore, his poems from the 1990s convey the mood of that era—marked by the occupation of Azerbaijani lands, the displacement and martyrdom of innocent people—as the poet laments to the Creator, the world, and his fate.

The article provides certain information about Arif Abdullazade's novels. It is noted that his novels offer facts and opportunities to define the concept of the individual and society. They help to clarify the realities of the era, the landscape of society, and the psychological state of humanity. Arif Abdullazade's first novel, *"A Handful of Soil"*, reflects the psychology of longing experienced by people who were separated from their homeland after World War II. His novel *"Intuition"* (*Duyum*) portrays the social and moral characteristics of Azerbaijani youth in the 1980s. It presents a realistic depiction of a life journey that moves toward understanding the value of the "grey" days of the "grey" life the protagonist describes, and toward

grasping the meaning of human existence—the sweetness of simply being, no matter the circumstances. In this novel, Arif Abdullazade introduces a new character to the Azerbaijani novel genre—a voice from another planet—marking a unique first.

The protagonists of both *"Intuition"* and *"The Strip of Light"* (*İşıq zolağı*) are characters who cannot adapt to or harmonize with their surroundings and society. They tend to resolve their emotions and inner conflicts in solitude. In fact, the protagonist of *"The Strip of Light"* is nicknamed "Robinson." The writer convincingly expresses the role of the era and the truths of the time in shaping such characters.

The article also analyzes Arif Abdullazade's novels *"Bloody Memory"* (*Qanlı yaddaş*) and *"The Sphere of Trial"* (*Sınaq kürrəsi*), which were published posthumously. In the novel *"Bloody Memory"*, the author chronicles the life path of the youth of the 1960s over a span of sixty years. The science fiction novel *"The Sphere of Trial"* conveys the concerns of a writer deeply worried about the fate of humanity and the universe—a message directed at humankind.

The results of the analysis show that both Arif Abdullazade's poetry and prose are literary examples that reflect a realistic portrayal of the relationship between the individual, time, and environment in the context of a period equivalent to a whole era in Azerbaijan. These are valuable works that allow for an exploration of the individual-society concept and provide insight into the social and psychological essence of the time.

**Насибова Хиджран**

**Человек и общество в художественном творчестве Арифа Абдуллазаде**

## РЕЗЮМЕ

**Ключевые слова:** Ариф Абдуллазаде, поэзия, проза, человек, мир, время

В статье охарактеризовано творчество Арифа Абдуллазаде. На основе примеров из его лирических произведений определяются поэтические концепции поэта о мире, времени и человеке. Раскрывается мировоззрение литературного поколения, называемого «шестидесятниками». Показаны поэтические и эстетические особенности, характеризующие лирику Арифа Абдуллазаде. На примерах его стихов раскрывается гражданская позиция и патриотизм поэта. Отмечается, что его стихи, отличающиеся самобытностью и пользующиеся любовью читателей, несут в себе идею оправдания звания человека, живущего с честью, и являются образцами поэзии, призывающей народ к протесту против тоталитаризма и империи, отражающей дух нации в борьбе за свободу.

В то же время в стихах, написанных поэтом в 1990-е годы, где он жалуется Создателю, миру и своей судьбе, отражается настроение того времени — оккупация наших земель, изгнание и гибель невинных людей.

В статье представлена определённая информация о романах Арифа Абдуллазаде. Отмечается, что его романы дают факты и возможность определить концепцию «человек и общество». Они служат основой для понимания реалий эпохи, картины общества и психологического состояния человечества. Первый роман Арифа Абдуллазаде — *«Горсть земли»* — отражает психологию тоски людей, оказавшихся вдали от родины после Второй мировой войны.

Его роман *«Ощущение»* (*Duyum*) описывает общественно-нравственные черты азербайджанской молодежи 1980-х годов и атмосферу того времени. Произведение реалистично изображает жизнь, в которой герой, называя свои дни «серыми», постепенно приходит к осознанию их ценности и смысла человеческого бытия — к восприятию сладости существования несмотря ни на что. В этом романе Ариф Абдуллазаде впервые ввёл в жанр азербайджанского романа новый образ — инопланетный «голос».

Герои как *«Ощущения»*, так и *«Полосы света»* — личности, которые не могут слиться и сродниться с окружающей средой и обществом, склонны к уединению, в котором переживают свои внутренние конфликты и чувства. Героя романа *«Полоса света»* даже называют «Робинзоном». Писатель убедительно выражает роль истины времени и эпохи в формировании таких героев.

В статье также анализируются романы Арифа Абдуллазаде *«Кровавая память»* и *«Сфера испытаний»*, изданные после его смерти. В романе *«Кровавая память»* писатель запечатлел хронику жизненного пути молодежи 1960-х годов за 60 лет. А фантастический роман *«Сфера испытаний»* является посланием тревожного, обеспокоенного судьбой человечества и Вселенной писателя ко всему человечеству.

Результаты анализа показывают, что как поэзия, так и проза Арифа Абдуллазаде являются литературными примерами, отражающими реальную картину взаимосвязи человека, времени и среды в Азербайджане эпохи, приравненной к целому веку. Эти произведения являются ценными источниками, позволяющими исследовать концепцию «человек и общество» и определить социально-психологическую сущность того времени.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Günay Qarayeva**